**Rumıniyanın Xarici İşlər Nazirliyinin 2020/2021-ci tədris ili üçün təqaüd proqramı**

Rumıniya Xarici İşlər Nazirliyi 2020/2021-ci tədris ili üzrə ali təhsilin müxtəlif səviyyələri üzrə təqaüd proqramı elan edir.

**Təhsil səviyyəsi:** bakalavriat, magistratura, doktorantura
**Tədris dili:** rumın dili
**İxtisaslar:** memarlıq, incəsənət, Rumıniya mədəniyyəti və sivilizasiyası, jurnalistika, siyasi və idarəetmə elmləri, təhsil, sosial və humanitar elmlər, neft-qaz, kənd təsərrüfatı və texnologiya elmləri, baytarlıq.
*Qeyd: tibb, stomatologiya və əczaçılıq ixtisasları nəzərdə tutulmamışdır.*
**Maliyyələşmə:** təhsil haqqı, yataqxana xərcləri və aylıq maliyyə dəstəyi (bakalavriat - 65 avro, magistratura təhsil səviyyəsi üçün 75 avro, doktorantura 85 avro). Qidalanma və nəqliyyat xərclərinin şəxsi vəsaitlə qarşılanması nəzərdə tutulmuşdur.

**Proqram haqqında təlimatlar:** **https://www.mae.ro/en/node/10251**

**Əlavə məlumat:** **https://bit.ly/2MDZVRG**

**Son sənəd qəbulu tarixi:** **07.02.2020-ci il**

**Tələb olunan sənədlərin siyahısı keçiddən əldə edilə bilər.**

Müsabiqədə iştirak etmək istəyən Azərbaycan Respublikası vətəndaşları yuxarıdakı keçiddə göstərilən müvafiq ərizə formaları ilə birgə tələb olunan sənədləri 07.02.2020-ci il tarixinədək Rumıniyanın Azərbaycandakı Səfirliyinə təqdim etməlidir.

**Namizədlərin seçimi Rumıniyanın aidiyyəti nazirliyi tərəfindən həyata keçirilir.**
Təqaüd proqramı ilə bağlı hər hansı sual yaranacağı təqdirdə Rumıniyanın Azərbaycandakı Səfirliyi ilə qeyd olunan elektron poçt vasitəsilə (baku@mae.ro) əlaqə saxlamağınız və bütün sənədləri təqdim etməzdən əvvəl Səfirliklə qəbul vaxtı təyin etməyiniz tövsiyə edilir.